QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



*"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir*

# SƏS

*Qəzet 1991-ci il yanvarın 11-dən çıxır*

№ 070 (5542) 12 **aprel** 2018-ci il. "Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı. **Qiyməti 40 qəpik**

# "Xalq-iqtidar birliyi Azərbaycanda inkişafımızın əsas amilidir"

## *Prezident İlham Əliyev Azərbaycan xalqına müraciət edib*



## Prezident İlham Əliyevin xalqa müraciəti

**-Əziz həmvətənlər.**

Prezident seçkilərində Azərbaycan xalqı yenidən mənə böyük etimad göstərmişdir. Bu etimada, bu böyük dəstəyə görə doğma xalqıma minnətdarlığımı bildirmək istəyirəm.

Mən həmişə Azərbaycan xalqının dəstəyini hiss edirəm. Bu dəstək mənə güc verir. Bu dəstək bizim inkişafımız üçün əsas şərtdir. Xalq-iqtidar birliyi Azərbaycanda inkişafımızın əsas amilidir. Bu seçkilərdə Azərbaycan xalqı sabitliyə, təhlükəsizliyə, inkişafa, tərəqqiyə səs vermiş, son 15 il ərzində görülən işlərə yüksək qiymət vermişdir. Bütün bu uğurları biz sizinlə birlikdə qazandıq.

Xalq-iqtidar birliyi, bizim məqsədyönlü siyasətimiz bu gün Azərbaycanı qüdrətli dövlətə çevirmişdir. Azərbaycanın beynəlxalq nüfuzu artır, biz dünya miqyasında layiqli yer tuta bilmişik. Bu gün Azərbaycan dünyada çox böyük hörmətə, rəğbətə, dəstəyə malik olan bir ölkədir. Biz etibarlı tərəfdaşıq, bizimlə hesablaşırlar və biz beynəlxalq aləmdə öz mövqelərimizi böyük dərəcədə gücləndirə bilmişik.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı prinsipial mövqeyimizdən bir addım da geriyə atmamışıq. Bizim prinsipial mövqeyimiz daha da güclənir. Bu münaqişə ölkəmizin ərazi bütövlüyü çərçivəsində həll olunmalıdır, bunun başqa yolu yoxdur. Son illər ərzində bir çox mötəbər beynəlxalq təşkilatlar bizim mövqeyimizi, ədaləti dəstəkləyən bir sıra qərar və qətnamələr qəbul etmişlər. Biz böyük diplomatik qələbələrə nail olmuşuq. Eyni zamanda, döyüş meydanında biz böyük qələbəyə nail olmuşuq. Azərbaycan əsgəri, Azərbaycan Ordusu, Azərbaycan dövləti işğal altında olan torpaqlarımızın bir hissəsini işğalçılardan azad etmişdir. Ağdərə, Füzuli, Cəbrayıl rayonlarının bir hissəsi işğalçılardan təmizləndi və o torpaqlarda bu gün Azərbaycan bayrağı dalğalanır. İşğaldan azad edilmiş torpaqlara həyat qayıdır, insanlar qayıdır. O torpaqlarda prezident seçkiləri keçirilir. Gün gələcək və bu gün hələ də işğal altında olan bütün torpaqlarda Azərbaycan bayrağı qaldırılacaq, bu torpaqlarda prezident seçkiləri keçiriləcək, Azərbaycan Prezidenti seçiləcəkdir.

Biz daha güclü olmalıyıq. Güclü olmaq üçün daha güclü iqtisadiyyat qurmalıyıq. Son 15 il ərzində iqtisadi sahədə Azərbaycan qədər inkişaf edən ikinci ölkə olmamışdır. İqtisadiyyatımız 3,2 dəfə artmışdır və bu gün Azərbaycan dünyanın ən rəqabətqabiliyyətli ölkələri sırasındadır. Rəqabət qabiliyyətliliyinə görə biz 35-ci yerdəyik.

Siyasətimizin mərkəzində həmişə Azərbaycan vətəndaşı, onun problemləri, qayğıları, onun rifahı olubdur. Son 15 il ərzində maaşlar və pensiyalar 8 dəfə artmışdır. Bu siyasət bundan sonra da davam etdiriləcəkdir. Azərbaycan bu illər ərzində kosmik dövlətə çevrilibdir. Biz ən qabaqcıl texnologiyaları ölkəmizə gətiririk, tətbiq edirik və texnoloji, elmi inkişaf gələcək fəaliyyətimiz üçün də əsas prioritetlərdən biri olacaqdır.

Bir sözlə, bütün istiqamətlər üzrə nəticələr göz qabağındadır. Azərbaycan nəhəng enerji və nəqliyyat layihələrini icra edir. Bizim təşəbbüsümüz və fəal iştirakımızla o layihələr əsasında Avrasiyanın enerji və nəqliyyat xəritələri yenidən tərtib olunur. Azərbaycan dövləti heç vaxt bugünkü qədər güclü olmamışdır. Biz güclü dövlət qurmuşuq, daha da güclü Azərbaycan qurmalıyıq və əminəm ki, quracağıq.

Keçdiyimiz yol şərəfli yoldur, qələbələr, uğurlar yoludur. Əminəm ki, biz həmişə qələbələr yolu ilə gedəcəyik. Yeni qələbələrə doğru irəli!

4

**MSK: Seçki məntəqələrinin 65 faizindən alınmış məlumatlara əsasən İlham Əliyev 86,09 faiz səs toplayıb**




4

**Əli Əhmədov: "Azərbaycan vətəndaşları İlham Əliyevin rəhbərliyi ilə qarşıdakı 7 il ərzində daha sürətli inkişafa səs veriblər"**




3

**Ramiz Mehdiyev: "İnanıram ki, bu seçkilər tarixdə mühüm bir hadisə kimi qalacaq"**



səs

www.sesqazeti.az

facebook Ses Media Holding

12 aprel 2018-ci il

# Azərbaycan Prezidenti İlham Əliyev 6 saylı seçki məntəqəsində səs verib



## Rəsmi xronika

Aprelin 11-də Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə telefonla zəng edib. Trend Azərbaycan Prezidentinin Mətbuat Xidmətinə istinadən məlumat verir ki, Türkiyə Prezidenti İlham Əliyevi prezident seçkilərində inamlı qələbəsi münasibətilə təbrik edib, Azərbaycan xalqının rifahı naminə prezidentlik fəaliyyətində ona yeni uğurlar arzulayıb. Dövlətimizin başçısı göstərilən diqqətə və təbrikə görə minnətdarlığını bildirib. Prezident İlham Əliyev və Prezident Rəcəb Tayyib Ərdoğan ölkələrimiz arasında dostluq və qardaşlıq münasibətlərinin bütün sahələrdə bundan sonra da inkişaf edəcəyinə əminliklərini ifadə ediblər.

* * *

Türkiyənin Baş naziri Binəli Yıldırım İlham Əliyevə prezident seçkilərində inamlı qələbəsi münasibətilə təbrik məktubu ünvanlayıb. Məktubda deyilir: "Aprelin 11-də Azərbaycanda keçirilən seçkilərdə prezident vəzifəsinə yenidən seçilməyiniz münasibətilə ən səmimi təbriklərimi çatdırıram. Dost və qardaş Azərbaycan xalqının iradəsini əks etdirən bu seçkilərin şəffaflıq və etimad şəraitində keçirilməsindən məmnunluq duyuruq. Qardaş Azərbaycanın sabitlik, əmin-amanlıq və rifah içində yaşayan ölkə olaraq inkişaf etməsində liderliyinizin rolu şübhəsiz ki, böyükdür.

Türkiyə ilə Azərbaycan arasındakı münasibətlərin istər ikitərəfli, istərsə də çoxtərəfli platformalarda dərinləşərək irəliləməsindəki liderlik rolunuzun davam edəcəyinə və qarşılıqlı münasibətlərimizin qardaş xalqlarımızın xeyrinə olaraq daha da yüksək səviyyəyə çatacağına inamım qətidir. Bu xoş fürsətdən istifadə edərək Sizə möhkəm cansağlığı və xoşbəxtlik diləklərimi, qardaş Azərbaycanın rifahı və sabitliyi naminə ən səmimi arzularımı çatdırıram".







Aprelin 11-i müasir müstəqil Azərbaycanın tarixində növbəti prezident seçkiləri günüdür. AZƏRTAC xəbər verir ki, səsvermə prosesinin başladığı ilk dəqiqələrdən Bakı şəhərinin 29 saylı Səbail seçki dairəsinin 6 nömrəli orta məktəbdə yerləşən 6 saylı seçki məntəqəsində xüsusi canlanma müşahidə olunurdu.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev xanımı Mehriban Əliyeva və ailə üzvləri ilə birlikdə seçki məntəqəsinə gəldi. Prezident İlham Əliyev səsvermə otağına daxil olub seçki bülletenini alaraq kabinəyə keçdi və sonra bülleteni qutuya saldı. Bu anı respublikamızın və xarici ölkələrin mətbuat orqanlarının, televiziya kanallarının nümayəndələri izlədilər. Sonra birinci xanım Mehriban Əliyeva və ailə üzvləri səs verdilər.

X X X

Bakı şəhərinin 29 saylı Səbail seçki dairəsinin 6 saylı seçki məntəqəsində 582 seçici qeydiyyata alınıb.

Məntəqədə səsvermənin gedişini xarici müşahidəçilər, habelə qeyri-hökumət təşkilatlarının, müxtəlif siyasi partiyaların və prezidentliyə namizədlərin nümayəndələri izləyirdilər.

Beynəlxalq müşahidəçi, Moldova parlamentinin vitse-spikeri Vladimir Vityuk bildirib ki, seçicilər öz iradələrini sərbəst surətdə ifadə edə bilirlər. Biz Azərbaycan vətəndaşlarının respublikanın taleyinə olan marağının və səsvermə prosesində fəal iştirakının şahidiyik. Səsvermənin gedişi göstərir ki, prezident seçkiləri mütəşəkkil, demokratik və şəffaf şəkildə başa çatacaqdır.

Böyük Britaniya parlamentinin üzvü Lord Devid Çarlz Evans prezident seçkilərinin yüksək səviyyədə təşkil olunduğunu vurğulayaraq deyib: "Seçicilərin fəallığı çox yüksəkdir. Biz bir neçə seçki məntəqəsində olmuşuq. Proses qanunvericiliyə uyğun, demokratik şəraitdə davam edir. Bunlar deməyə əsas verir ki, Azərbaycanda prezident seçkiləri mükəmməl təşkil olunub".

Qeyd edək ki, Azərbaycanın hər yerində olduğu kimi, 29 saylı Səbail seçki dairəsinin 6 saylı seçki məntəqəsində də seçicilər xalqımızın xoşbəxt gələcəyinə, dövlətçiliyimizin daha da möhkəmləndirilməsinə, iqtisadi dirçəlişə, dinamik inkişafa, sabitliyə və əmin-amanlığa səs verirlər.

# Ramiz Mehdiyev: “İnanıram ki, bu seçkilər tarixdə mühüm bir hadisə kimi qalacaq”



Aprelin 11-də prezident seçkilərinin başlandığı səhər saatlarından Bakının 29 saylı Səbail seçki dairəsinin 7 saylı seçki məntəqəsində xüsusi canlanma müşahidə olunurdu. AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbəri, akademik Ramiz Mehdiyev həmin məntəqədə səs verib.

Məntəqədə səsvermənin gedişini beynəlxalq və yerli müşahidəçilər izləyirdilər. Jurnalistlərin suallarını cavablandıran akademik Ramiz Mehdiyev seçicilərin fəallığını yüksək dəyərləndirib. Prezident Administrasiyasının rəhbəri saat 17-dək ölkə üzrə artıq 70 faiz seçicinin səs verdiyini, heç bir insidentin baş vermədiyini bildirib.

Akademik Ramiz Mehdiyev seçicilərin sərbəst şəkildə istədikləri namizədə səs verdiklərini vurğulayaraq deyib: “İnanıram ki, bu seçkilər doğrudan da tarixdə mühüm bir hadisə kimi qalacaq. Çünki Azərbaycan 15 ildə çox irəli gedib, böyük nailiyyətlər əldə edib, dünyada tanınır, öz yerini tutub, iqtisadiyyat sahəsində, sosial məsələlərin həllində çox işlər görülüb. Ona görə də seçicilərin seçkilərdə yüksək səviyyədə iştirakı təbiidir”.

Jurnalistlərin bəzi şəxslərin xaricdən Azərbaycana qarayaxma ilə məşğul olmalarına dair sualına cavabında Prezident Administrasiyasının rəhbəri bunu çox pis qiymətləndirdiyini vurğulayaraq deyib: “Mən hesab edirəm ki, normal insan bu yola düşməməlidir. Çünki biri var daxildə müxalifət, biri də var gedib xaricdə Azərbaycana qara yaxmaq, onu hörmətdən salmaq. Bu, yaxşı hal deyil. Təəssüflər olsun ki, bəzi insanlar burada böyük cinayətlər törədib və sonra da qaçıb xaricə gediblər. Xaricdə də başlayıblar Azərbaycanı pisləməyə. Bu, əlbəttə ki, yaxşı hal deyil. Hər halda bu, Azərbaycan xalqına xas olan bir xüsusiyyət deyil. Görünür ki, mədəniyyətləri, tərbiyələri yerində olmadığına görə belə əməllərə əl atırlar”.



## Baş nazir Artur Rasi-zadə 29 saylı seçki məntəqəsində səs verib

Aprelin 11-də prezident seçkilərinin başlandığı səhər saatlarından Bakı şəhərinin 16 saylı Yasamal ikinci seçki dairəsinin 29 saylı seçki məntəqəsində canlanma hiss olunurdu. AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Baş naziri Artur Rasi-zadə bu seçki məntəqəsinə gələrək səs verib. Məntəqədə 1385 seçici qeydiyyata alınıb.

## Milli Məclisin sədri Oqtay Əsədov 22 saylı seçki məntəqəsində səs verib



Prezident seçkilərinin başlandığı səhər saatlarından 23 saylı Nəsimi-Səbail seçki dairəsinin 22 saylı seçki məntəqəsində də fəallıq müşahidə olunurdu. AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikası Milli Məclisinin sədri Oqtay Əsədov bu seçki məntəqəsinə gələrək səs verib. Məntəqədə 1203 seçici qeydiyyata alınıb. Səsvermənin gedişini beynəlxalq və yerli müşahidəçilər izləyirdilər.

## Mərkəzi Seçki Komissiyasının sədri 31 saylı seçki məntəqəsində səs verib



Aprelin 11-də Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının sədri Məzahir Pənahov 10 saylı Binəqədi üçüncü seçki dairəsinin 31 saylı seçki məntəqəsində səs verib. AZƏRTAC xəbər verir ki, 1269 nəfərin qeydiyyatda olduğu məntəqədə seçicilərin fəallığı müşahidə edilirdi. Səsvermənin gedişini beynəlxalq və yerli müşahidəçilər izləyirdilər.

# Fransanın “Opinion Way” Tədqiqatlar İnstitutu prezident seçkiləri ilə bağlı “exit-poll”un nəticələrini açıqlayıb

***Fransanın “Opinion Way” Tədqiqatlar İnstitutu “Vətəndaş Cəmiyyəti Uğrunda” Müstəqil Məsləhət və Yardım Mərkəzi ilə birgə 11 aprel prezident seçkilərində səs verənlər arasında keçirdiyi “exit-poll”un nəticələrini açıqlayıb.***




AZƏRTAC xəbər verir ki, “exit-poll”un nəticələrinə əsasən, prezidentliyə namizədlər İlham Əliyev 86,53 faiz, Araz Əlizadə 1,21 faiz, Hafiz Hacıyev 1,73 faiz, Qüdrət Həsənquliyev 3,1 faiz, Fərəc Quliyev 1,03 faiz, Sərdar Məmmədov 2,81 faiz, Razi Nurullayev 0,67 faiz, Zahid Oruc 2,92 faiz səs toplayıblar. “Exit-poll” 118 seçki dairəsi üzrə 210 məntəqədə 11 min 495 nəfər arasında keçirilib.

## “Euronews” Azərbaycandakı prezident seçkiləri ilə bağlı reportaj yayımlayıb

“Euronews” kanalı Azərbaycanda keçirilən prezident seçkiləri ilə bağlı reportaj yayımlayıb. AZƏRTAC xəbər verir ki, reportajda Azərbaycanda prezidentliyə 8 namizədin qeydə alındığı vurğulanır. Bildirilir ki, ölkə üzrə seçicilərin sayı 5 milyondan çoxdur.

Videoreportajda Azərbaycandakı seçkilərin həm ölkə, həm də region üçün əhəmiyyətindən bəhs olunur.




Qeyd edək ki, Azərbaycandakı prezident seçkilərini müşahidə etmək üçün dünyanın aparıcı KİV-ləri də daxil olmaqla, 120-yə yaxın jurnalist ölkəmizdə səfərdədir. Onlar arasında “The Washington Times”, “The Hill”, “The Jerusalem Post”, “The Tames of İsrael”, “Daily Caller”, “Muslim World Today”, “The Algemainer”, “İndependent Journal Review”, “RAİ” TV, “New Europe”, “Al Jaazeera”, ORT, RTR, Rossiya Seqodnya, Daily Times, TRT World və digər KİV-lərin nümayəndələri var.

# Əli Əhmədov: "Azərbaycan vətəndaşları İlham Əliyevin rəhbərliyi ilə qarşıdakı 7 il ərzində daha sürətli inkişafa səs veriblər"






Azərbaycanda keçirilən növbəti prezident seçkiləri baş tutub. Mərkəzi Seçki Komissiyasından verilən məlumata görə, seçkilərdə 3,9 milyondan çox vətəndaş iştirak edib. Bu da bütün seçicilərin 74,5 faizini təşkil edir. Keçirilən "exit poll"ların nəticələrinə görə, seçicilərin 80 faizdən çoxu Yeni Azərbaycan Partiyasının namizədi İlham Əliyevə səs verib. Bu da deməyə əsas verir ki, İlham Əliyev prezident seçkilərində inamlı qələbə qazanacaq.

AZƏRTAC xəbər verir ki, bu sözləri Yeni Azərbaycan Partiyası (YAP) sədrinin müavini-icra katibi Əli Əhmədov aprelin 11-də partiyanın qərargahında keçirdiyi mətbuat konfransında söyləyib.

Əli Əhmədov deyib: "MSK-nın verəcəyi ilkin məlumatlar bir neçə saat ərzində məlum olacaq. Hesab edirəm ki, "exit-poll"ların nəticələri MSK-nın rəsmi məlumatları ilə o qədər də böyük fərqə malik olmayacaq. Azərbaycan xalqı həmişə olduğu kimi, yenə də düzgün, müdrik seçim edib. Bu seçim İlham Əliyevdir. Azərbaycanın bugünkü inkişafı İlham Əliyevin fəaliyyəti ilə bağlıdır. İlham Əliyevin prezidentliyi dövründə Azərbaycan böyük inkişaf mərhələsi keçib. Azərbaycanın siması dəyişib. Azərbaycanın dövlətçiliyinin əsasları ciddi şəkildə möhkəmlənib. Azərbaycan dövləti güclənib, qüdrəti artıb. Ölkəmizin dünyadakı mövqeyi güclənib, iqtisadiyyatı inkişaf edib. Orduмuzun qüdrəti artıb, mən bunu ona görə xüsusi vurğulamaq istəyirəm ki, Azərbaycanın həll olunmamış Dağlıq Qarabağ münaqişəsi və onun nəticələri qalmaqdadır. Bu, təbii ki, Azərbaycanı öz ordusunu gücləndirməyə vadar edir. Beləliklə, Azərbaycan xalqının göstərilən bu xidmətlər qarşısında düzgün, doğru və müdrik seçim etməsi tamamilə məntiqə uyğundur.

Prezident İlham Əliyev Azərbaycanın inkişafı üçün çox böyük xidmətlər göstərib. Buna görə də seçicilərin böyük əksəriyyəti öz səslərini İlham Əliyevə veriblər. Bununla da Azərbaycan vətəndaşları İlham Əliyevin rəhbərliyi ilə qarşıdakı 7 il ərzində daha sürətli inkişafa, sabitliyə, əmin-amanlığa, rifaha səs veriblər. Hesab edirəm ki, növbəti 7 il Azərbaycanda inkişafın yeni mərhələsi olacaq. Bu illər ərzində Azərbaycanda Prezident İlham Əliyevin müəyyənləşdirdiyi və Azərbaycan vətəndaşlarına məlum olan geniş proqramı, strategiyası əsasında ölkə iqtisadiyyatı daha da güclənəcək, şaxələnəcək, respublikada yeni iqtisadi model formalaşacaq. Azərbaycanda iqtisadiyyatın inkişafı nəticəsində insanların rifahının yaxşılaşması üçün daha genişmiqyaslı hökumət proqramları işlənib hazırlanacaq və uğurla həyata keçiriləcək. Regional siyasət daha ciddi əsaslarda həyata keçiriləcək, Azərbaycanın dünya iqtisadiyyatına və bütövlükdə dünya birliyinə inteqrasiya prosesi güclənəcək, Avropanın enerji təhlükəsizliyinin təmin edilməsində rolu artacaq və bütövlükdə dünyada ölkəmizin mövqeləri daha da güclənəcək. Bu 7 il bundan əvvəlki illər ərzində Azərbaycanın inkişafının əsasında daha sürətli inkişaf illəri olacaq. Mən bu münasibətlə bütün Azərbaycan xalqını təbrik edirəm".

# MSK: Seçki məntəqələrinin 65 faizindən alınmış məlumatlara əsasən İlham Əliyev 86,09 faiz səs toplayıb






Mərkəzi Seçki Komissiyasının sədri Məzahir Pənahov prezident seçkilərində məntəqələrin 65 faizindən alınmış məlumatların nəticələrini açıqlayıb.

AZƏRTAC xəbər verir ki, mətbuat konfransında bu barədə məlumat verən Məzahir Pənahov deyib: "Bu gün Azərbaycanda 125 seçki dairəsinin hamısında seçkilər baş tutub. İndiyədək Mərkəzi Seçki Komissiyasına 5641 məntəqənin 3675-dən, yəni, 65 faizdən çoxundan məlumatlar daxil olub. Etibarlı sayılmış 2 milyon 660 min 622 səsin hesablanmasından sonra Əliyev İlham Heydər oğlu 2 milyon 290 min 486 səs (etibarlı səslərin 86,09 faizi) toplayıb və böyük fərqlə liderlik edir.

Yerdə qalan səslər digər namizədlər arasında belə bölünüb:

Əlizadə Araz Məmməd-Mübariz oğlu - 37 min 145 səs (1,40 faiz);

Hacıyev Hafiz Ələmdar oğlu - 40 min 171 səs (1,51 faiz);

Həsənquliyev Qüdrət Müzəffər oğlu - 80 min 844 səs (3,04 faiz);

Quliyev Fərəc İbrahim oğlu - 31 min 317 səs (1,18 faiz);

Məmmədov Sərdar Cəlal oğlu - 79 min 108 səs (2,97 faiz);

Nurullayev Razi Qulaməli oğlu - 19 min 856 səs (0,74 faiz);

Oruc Zahid Məhərrəm oğlu - 81 min 695 səs (3,07 faiz).

MSK-nın sədri bildirib ki, məntəqələrdən məlumatların daxil olması davam edir. "Hesab edirəm ki, yaxın saatlarda seçki məntəqələrinin hamısından məlumatlar alınacaq. Həmin məlumatlar əsasında ilkin nəticələr ictimaiyyətə açıqlanacaq", - deyə Məzahir Pənahov əlavə edib.

## Azərbaycanda keçirilən prezident seçkiləri İran mediasının diqqət mərkəzindədir



İran mediası Azərbaycanda keçirilən prezident seçkilərini diqqət mərkəzində saxlayır. AZƏRTAC xəbər verir ki, İranın İRNA Dövlət İnformasiya Agentliyi prezident seçkiləri ilə əlaqədar ətraflı məlumat yayıb. Agentlik bildirir ki, səsvermə 5 min 641 seçki məntəqəsində təşkil olunub. Ölkənin 5 milyon 309 min səsvermə hüququ olan vətəndaşı var. Seçkiləri 60 beynəlxalq təşkilatın 890 nümayəndəsi və 58 min 175 yerli müşahidəçi izləyir. Seçki prosesini işıqlandırmaq üçün 118 xarici jurnalist akkreditasiyadan keçib. Səsvermə sakit və şəffaf şəraitdə davam edir, hələlik heç bir qanun pozuntusu qeydə alınmayıb. İranın digər KİV-ləri də Azərbaycanda keçirilən prezident seçkiləri haqqında informasiyalar yaymaqda davam edirlər.

# "Azərbaycan dövləti öz vətəndaşlarına azad səs vermək üçün yüksək şərait yaradıb"

## *Azərbaycanda prezident seçkilərini izləyən beynəlxalq müşahidəçilər: "Seçkilər demokratik prinsiplərə uyğun keçdi"*




### Latviya Seyminin deputatı: "Seçkilərdə heç bir qanun pozuntusuna rast gəlmədik"

Seçkilərin keçirildiyi 10 məntəqədə olduq və heç bir qanun pozuntusuna rast gəlmədik. AZƏRTAC xəbər verir ki, bu fikirləri Latviya Seyminin deputatı Roamans Naudins keçirdiyi mətbuat konfransında səsləndirib. Azərbaycanda prezident seçkilərini izləyən beynəlxalq müşahidəçi qeyd edib ki, rastlaşdıqları diqqətçəkən məqamlardan biri hərəkət imkanı məhdud insanlara səsvermədə iştirak etmələri üçün yaradılmış şərait olub.

Latviyalı deputat, həmçinin bildirib ki, bəzi evlərə səyyar seçki qutularının göndərildiyinin şahidi olub. Sükut gününədək bütün məntəqələrdə təbliğat banerləri asılıb və insanlar bütün namizədlərlə tanış ola biliblər. Beynəlxalq müşahidəçilər bunu təqdirəlayiq hal kimi dəyərləndirib.

### Maksim Kuryaçiy: "Səsvermə prosesi nöqsansız və yüksək fəallıq şəraitində keçdi"




Bu gün Azərbaycan üçün çox məsuliyyətli bir gün idi. Biz Ukrayna parlamentinin təmsilçiləri Azərbaycanda prezident seçkilərində səsvermə prosesini yaxından izlədik. Bu, bizim üçün çox böyük maraq kəsb edirdi. Azərbaycan Respublikası Ukrayna üçün həmişə güvəndiyimiz strateji tərəfdaş olub və olacaq. Ukrayna da Azərbaycanın etibarlı strateji əməkdaşıdır. Bu gün biz 20-dən çox seçki məntəqəsində olduq. Təkcə Bakıda deyil, həm də Azərbaycanın ucqar kəndlərində səsvermə prosesini müşahidə etdik. Seçkilər demokratik prinsiplərə uyğun keçdi.

AZƏRTAC xəbər verir ki, bu sözləri Ukrayna-Azərbaycan parlamentlərarası dostluq qrupunun rəhbəri Maksim Kuryaçiy seçkiləri müşahidə prosesinin yekununa həsr olunmuş mətbuat konfransında bildirib.

Maksim Kuryaçiy deyib ki, həm seçicilərlə, həm də dairə və məntəqə seçki komissiyalarının rəsmiləri, digər ölkələrin müşahidəçiləri ilə ünsiyyət qurublar. "Səsvermə prosesi uğurla başa çatdı. Biz heç bir ciddi qayda pozuntusu müşahidə etmədik. Azərbaycanda seçkilər tamamilə Seçki Məcəlləsinə uyğun keçdi. Biz bu gün Azərbaycan xalqının siyasi fəallığını müşahidə etdik. Bu o deməkdir ki, onlar özlərinin sabahlarına biganə deyillər. Həmçinin bu, bir daha sübut edir ki, Azərbaycan dövləti öz vətəndaşlarına azad səs vermək üçün yüksək şərait yaradıb", - deyə M.Kuryaçiy əlavə edib.

Ukrayna-Azərbaycan parlamentlərarası dostluq qrupunun rəhbəri bildirib ki, məntəqələrdə veb-kameraların olması Azərbaycan dövlətinin şəffaf seçkilərin keçirilməsində maraqlı olduğunun göstəricisidir. Səsvermə prosesi nöqsansız və yüksək fəallıq şəraitində keçdi.

### Özbəkistan Parlament Məclisinin sədr müavini: "Azərbaycanda prezident seçkiləri tam demokratik şəkildə keçdi"




Azərbaycanda prezident seçkiləri tam demokratik şəkildə keçdi. Müşahidə apardığımız bütün məntəqələrdə seçici fəallığı var idi. AZƏRTAC xəbər verir ki, bu sözləri Özbəkistan Parlament Məclisi sədrinin müavini Sarvar Otamuratov aprelin 11-də prezident seçkiləri ilə bağlı keçirilən mətbuat konfransında bildirib.

O deyib ki, bütün partiyaların nümayəndələri, həmçinin müstəqil müşahidəçilər səsvermə prosesini sərbəst şəkildə izlədilər. Bundan başqa, seçki məntəqələrində veb-kameralar quraşdırılmışdı ki, bu kameralar vasitəsilə seçki prosesini canlı izləmək mümkün idi. Sonda Sarvar Otamuratov Azərbaycana bütün sahələrdə uğurlar arzulayıb.

### Avstraliyalı müşahidəçi: "Azərbaycanda seçki şəffaflığı tam təmin olunub"




Seçki prosesi qanun çərçivəsində keçirilirdi və biz heç bir neqativ hal müşahidə etmədik. AZƏRTAC xəbər verir ki, bunu Avstraliya parlamentinin deputatı Kelli Kraiq Robert keçirdiyi mətbuat konfransında deyib. O qeyd edib ki, Azərbaycanda seçki prosesi, ilk növbədə, öz şəffaflığı ilə diqqəti çəkir. Avstraliyadan olan müşahidəçinin sözlərinə görə, o, bu təcrübəni ölkəsində tətbiq etmək üçün təşəbbüs irəli sürəcək. "Azərbaycanda seçicilərin barmağının mürəkkəblə işarələnməsi və məntəqələrdə veb-kameraların quraşdırılması seçkinin şəffaflığından xəbər verir. Mən bu səfər zamanı Azərbaycanla bağlı bir çox yenilikləri öyrəndim", - deyə Kelli Kraiq bildirib.

Ardı Səh. 6

www.sesqazeti.az
facebook Ses Media Holding

# "Azərbaycan dövləti öz vətəndaşlarına azad səs vermək üçün yüksək şərait yaradıb"

## *Azərbaycanda prezident seçkilərini izləyən beynəlxalq müşahidəçilər: "Seçkilər demokratik prinsiplərə uyğun keçdi"*

### İƏT nümayəndə heyətinin rəhbəri: "Azərbaycan xalqına uğurlu və parlaq gələcək arzu edirik"




İslam Əməkdaşlıq Təşkilatına üzv ölkələrin Parlament İttifaqına 54 ölkə daxildir. Azərbaycan Milli Məclisi də bu qurumun üzvüdür. Azərbaycanda 20-dən çox seçki məntəqəsində olduq və səsvermə prosesi yüksək səviyyədə keçdi. AZƏRTAC xəbər verir ki, bu sözləri İslam Əməkdaşlıq Təşkilatı Parlament İttifaqının baş katibi Mahmud Erol Kılıç səsvermə prosesi ilə bağlı apardıqları müşahidələrin yekununa dair mətbuat konfransında deyib. Mahmud Erol Kılıç bildirib ki, seçki məntəqələrində seçicilərlə, məntəqə komissiyalarının üzvləri və müşahidəçilərlə söhbətlərdən hər iki tərəf məmnunluqla ayrılıb. Seçkilər şəffaf, ədalətli və qanunlar çərçivəsində keçirilib. Biz heç bir nöqsan aşkar etməmişik. Azərbaycan xalqına uğurlu və parlaq gələcək arzu edirik.

### QDİƏT PA-nın vitse-prezidenti: "Azərbaycanda prezident seçkiləri tam qanunauyğun şəkildə keçdi"




Azərbaycanda prezident seçkiləri tam qanunauyğun şəkildə keçdi. Müşahidələrimiz zamanı heç bir pozuntu hallarına rast gəlmədik. AZƏRTAC xəbər verir ki, bu fikirləri Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı Parlament Assambleyasının vitse-prezidenti Piter Kanyer mətbuat konfransında bildirib. Mətbuat konfransında beynəlxalq müşahidəçi, Yunanıstan parlamentinin deputatı Simeon Kedikoğlu da seçkilərin yüksək səviyyədə keçdiyini deyib. O qeyd edib ki, seçkilərdə gənclərin fəallığını müşahidə etmək xüsusilə müsbət haldır. O, ölkəsində də gənclərin seçkilərdə bu dərəcədə fəal olmalarını arzuladığını deyib. Yunanıstanlı deputat, ümumilikdə, bütün prosesin öz qaydasında getdiyini vurğulayıb.

### Bolqarıstanlı deputat: "Əminliklə deyə bilərəm ki, seçkilər demokratik və ədalətli şəkildə keçdi"

Azərbaycanda keçirilən prezident seçkilərində apardığım müşahidələr zamanı heç bir qanun pozuntusuna rast gəlmədim. Əminliklə deyə bilərəm ki, seçkilər demokratik və ədalətli şəkildə keçdi.AZƏRTAC xəbər verir ki, bu sözləri Bolqarıstan parlamentinin deputatı Hamid Hamid müşahidələrinin yekunlarına dair keçirdiyi mətbuat konfransında söyləyib. Bolqarıstanlı deputat bir çox seçki məntəqələrində səsvermənin gedişini müşahidə etdiyini və hər hansı qanun pozuntusu ilə rastlaşmadığını bildirərək deyib: "Azərbaycanın seçki təcrübəsini yüksək qiymətləndirirəm. Məntəqələrdə veb-kameraların




quraşdırılmasını xüsusi qeyd etmək istərdim. Tam əminliklə deyə bilərəm ki, seçkilər demokratik və ədalətli şəkildə baş tutdu".

### Gürcüstan parlamentinin sədr müavini: "Azərbaycanda keçirilən prezident seçkiləri Avropa standartlarına tam uyğundur"




Azərbaycanda keçirilən prezident seçkiləri Avropa standartlarına tam uyğundur. AZƏRTAC xəbər verir ki, bu fikri Gürcüstan parlamentinin sədr müavini Zviad Dzidziguri seçkilərdə apardığı müşahidələrinin yekunlarına dair keçirdiyi mətbuat konfransında bildirib. Zviad Dzidziguri səhər saatlarından etibarən çoxlu sayda seçki məntəqəsində səsverməni müşahidə etdiklərini və prosesin gedişindən razı qaldıqlarını qeyd edərək deyib: "Seçki prosesini müşahidə etdik, prezidentliyə namizədlərin təmsilçiləri ilə görüşdük. Müsbət haldır ki, prezidentliyə namizədliyi qeydə alınmış 8 nəfərin nümayəndələri bütün seçki məntəqələrində fəaliyyət göstərirdilər. Çox vacib məqamlardan biri də budur ki, onların heç biri seçki prosesinin gedişindən şikayətlənmədi. Belə yüksək səviyyəli seçki keçirdiyi üçün Azərbaycanı təbrik edirəm".

### Asiya Parlament Assambleyası: "Azərbaycan xalqı öz iradəsini ifadə edərək dəstəklədiyi namizədə səs verdi"




Azərbaycan xalqı öz iradəsini ifadə edərək dəstəklədiyi namizədə səs verdi. Bu seçkilərin Azərbaycan xalqı üçün uğurlu olmasını arzulayırıq. AZƏRTAC xəbər verir ki, bu fikirləri aprelin 11-də Azərbaycanda keçirilən prezident seçkilərini izləyən Asiya Parlament Assambleyasının nümayəndə heyətinin rəhbəri, Assambleyanın xüsusi nümayəndəsi, Türkiyə Böyük Millət Məclisinin deputatı Burhan Kayatürk müşahidələrin yekunlarına dair təşkil edilən mətbuat konfransında deyib.

Ardı Səh. 7

# "Azərbaycan dövləti öz vətəndaşlarına azad səs vermək üçün yüksək şərait yaradıb"

## *Azərbaycanda prezident seçkilərini izləyən beynəlxalq müşahidəçilər: "Seçkilər demokratik prinsiplərə uyğun keçdi"*

Əvvəli-Səh-6

B.Kayatürk bildirib ki, onun rəhbərlik etdiyi nümayəndə heyəti gün ərzində həm paytaxtın mərkəzində, həm də şəhərətrafı qəsəbələrdə səsvermə prosesinin gedişini müşahidə edib. Səsvermə prosesinin azad və şəffaf şəkildə keçdiyini söyləyən xüsusi nümayəndə əlavə edib ki, məntəqələrdə həm yerli, həm də beynəlxalq müşahidəçilərin sərbəst müşahidə aparması üçün hər cür şərait yaradılmışdı.

Mətbuat konfransında çıxış edən Banqladeş parlamentinin üzvü Nazrul İslam Çovdhuri də səsvermə prosesinin çox yüksək səviyyədə keçirildiyini vurğulayaraq 11 aprel prezident seçkilərini nümunəvi seçkilər kimi qiymətləndirib.

### Haluk İpək: "Prezident seçkiləri yüksək səviyyədə keçirildi"




Azərbaycanda prezident seçkiləri beynəlxalq standartlara uyğun keçirildi. Bütün namizədlərə bərabər şərait yaradılmışdı. Müşahidələr zamanı heç bir hüquq pozuntusu qeydə alınmadı.

AZƏRTAC xəbər verir ki, bu fikirləri TURKPA müşahidə missiyasının rəhbəri, Türkiyə Böyük Millət Məclisinin deputatı Haluk İpək mətbuat konfransında bildirib. Haluk İpək qeyd edib ki, seçki müşahidələri Sumqayıt şəhəri və Abşeron rayonu ərazisində də aparılıb. Min məntəqədə veb-kameraların quraşdırıldığını deyən müşahidə missiyasının rəhbəri əlil və görmə qabiliyyətini itirmiş şəxslərin də seçki hüquqlarından istifadə etmələrinə şərait yaradıldığını bildirib. O qeyd edib ki, seçkilər yüksək səviyyədə keçirilib. Seçki prosesini MSK-nın veb-saytından onlayn formada izləmək mümkün olub. Qonaq ümumilikdə bütün prosesin öz qaydasında getdiyini vurğulayıb.

### George Mosidze: "Seçkilərdə heç bir qanun pozuntusuna rast gəlmədik"




Bakı, Abşeron və Sumqayıtdakı seçki məntəqələrində müşahidələr apardıq və prosesin tam qanun çərçivəsində həyata keçirildiyinin şahidi olduq.

AZƏRTAC xəbər verir ki, bu fikri GUAM Parlament Assambleyası nümayəndə heyətinin üzvü George Mosidze mətbuat konfransında bildirib. Beynəlxalq müşahidəçi seçkilərin tam qanunauyğun şəkildə keçirildiyini deyib. O qeyd edib ki, müşahidələr zamanı heç bir qanun pozuntusunun şahidi olmayıb. Seçicilər, eləcə də beynəlxalq müşahidəçilər üçün hər cür şərait yaradılmışdı.

### "Sivil dialoq" beynəlxalq müşahidə missiyası seçkilərlə bağlı bəyanat yayıb




"Sivil dialoq" beynəlxalq müşahidə missiyasının birinci qrupu Azərbaycanda prezident seçkiləri ilə bağlı bəyanat yayıb. AZƏRTAC xəbər verir ki, İtaliya parlamentinin sabiq üzvü, İtaliya xarici əlaqələr komitəsinin hazırkı üzvü Antonio Radze bildirib ki, bu gün müxtəlif seçki məntəqələrində müşahidə aparılıb və heç bir qanun pozuntusu qeydə alınmayıb.

"Seçki prosesi demokratik və şəffaf olub. Barmaq izinin skan olunması çox innovativ bir sistemdir, bununla heç vaxt rastlaşmamışdım. Bu gün xalqın İlham Əliyevin yüksək səs toplaması ilə əlaqədar bayram etdiyini gördüm. Azərbaycanın gələcəkdə daha da inkişaf etməsini arzu edirəm".

İtaliya parlamentinin üzvü Cakomo Bedze isə bildirib ki, çox yüksək seçici fəallığı müşahidə edib. O, seçki prosesinin mükəmməl təşkil olunduğunu vurğulayıb.

Finlandiya Senatının fəxri üzvü, belçikalı Frank Kriyerman seçkilərin Avropa standartlarına uyğun keçirildiyini bildirib. O deyib: "Bakı İslam və Qərb mədəniyyətinin birləşdiyi məkandır. Məhz "Bakı Prosesi" İslam və Qərb dünyasının bir-birini daha yaxşı anlaması baxımından böyük rola malikdir. İlham Əliyevin bunda rolu çox böyükdür. Güman ki, İlham Əliyev qalib gələcək. Çünki ölkəni dünya standartlarına uyğun formada idarə edir. Azərbaycan xalqına uğurlar arzu edirəm".

Argentina parlamentinin üzvü, Cənubi Amerika Parlamentlərarası Birliyinin vitse-prezidenti Daniel Ramundo Azərbaycanın açıq ölkə olduğunu deyib. Demokratiya bu ölkədə artıq tam bərqərar olub. Demokratik mühitdə keçirilən hər seçki Azərbaycanın Avropa ailəsinin üzvü olmasına doğru atılan bir addımdır".

"Sivil dialoq" beynəlxalq müşahidə missiyasının ikinci qrupu da seçkilərlə bağlı bəyanat yayıb.

Bolqarıstan parlamentinin üzvü, Sosialist Partiyasının təmsilçisi Penço Milkov bildirib ki, Azərbaycanda prezident seçkilərini böyük məmnuniyyətlə izləyib. Seçki prosesi qanunauyğun şəkildə keçdi, bütün qaydalara riayət olundu. Polşa parlamentinin üzvü Yerji Pişisla deyib ki, Azərbaycandakı seçkiləri Avropa ölkələrindəki seçkilərlə müqayisə etsək burada bütün prosesin daha sakit formada keçdiyini deyə bilərik. Almaniya Bundestaqının üzvü Stefan Kuiter Azərbaycanda seçkilərin azad şəkildə, demokratik prinsiplərə uyğun keçirildiyini bildirib. Yunanıstan parlamentinin üzvü İoannis Kefalogiannis də seçkilərin şəffaf və beynəlxalq normalara uyğun keçirildiyini vurğulayıb.

### Peter Marçek: "Seçicilər öz iradələrini sərbəst ifadə etdilər"




Seçicilər öz iradələrini sərbəst ifadə edərək istədikləri namizədə səs verdilər. AZƏRTAC xəbər verir ki, bu sözləri slovakiyalı müşahidəçi Peter Marçek söyləyib. Ölkəmizdə prezident seçkilərini izləməkdən məmnun olduğunu deyən müşahidəçi Azərbaycan xalqını demokratik seçkilərin baş tutması münasibətilə təbrik edib. O, səsvermə prosesinin yüksək səviyyədə keçdiyini vurğulayıb.

# Xalq İlham Əliyevə "HƏ" dedi!

## YAP-ın təşkilatçılığı ilə "İlhamla irəli" konsert proqramı keçirilib

***Azərbaycan xalqı növbəti sınaqdan uğurla keçdi. Belə ki, növbəti prezident seçkilərində Ulu Öndər Heydər Əliyevin ideologiyasının davamına, inkişafına və tərəqqisinə səs verərək, Cənab İlham Əliyev müdrikliyini və siyasətini dəstəklədi. Bu müdrikliyin əsasında Azərbaycan dövlətçiliyinin inkişafı, xalqımızın rifah halının daha da yaxşılaşdırılması, ölkəmizin dünya dövlətləri arasında liderliyinin qorunub-saxlanması və s. əhəmiyyətli faktorlar dayanmışdır.***










Söz yox ki, Cənab İlham Əliyevin Azərbaycana rəhbərlik etdiyi son 15 ildə görülən mütərəqqi işlərin hər birinin əsasında Azərbaycan xalqının gələcəyi və xoşbəxtliyi amilləri dayanır. Əbəs deyil ki, hələ illər öncə "Mən hər bir azərbaycanlının prezidenti olacağam" kəlamı bu gün hər bir vətənsevər övladın, atanın, ananın dilində əzbər olub. Məhz bu kimi önəmli tarixi hadisələri aşılayarkən, keçirilmiş prezident seçkilərinin nəticəsi öz təsdiqini növbəti dəfə tapmış oldu. Xalq-iqtidar birliyi və bu birliyin təcəssümü 2018-ci il 11 aprel tarixi sübuta yetirdi ki, həmin birlik pozulmazdır.

Azərbaycan xalqı bu günü böyük qürur və fərəh hissi ilə tarixə yazaraq, milli bayram kimi qeyd edir və bu bayram gələcək nəsillərimizin rifahı naminə, eləcə də tarixi yaddaşına hopacaq böyük hadisədir!

Aprelin 11-də keçirilən prezident seçkilərində Yeni Azərbaycan Partiyasının Sədri cənab İlham Əliyev xalqın mütləq əksəriyyətinin etimadını qazanaraq seçki marafonunun qalibi olub. SİA-nın verdiyi məlumata görə, bu münasibətlə, axşam saatlarında Yeni Azərbaycan Partiyasının üzvləri cənab İlham Əliyevin bu parlaq qələbəsini paytaxtın "Sahil" bağında "İlhamla İrəli!" möhtəşəm konsert proqramı ilə qeyd ediblər.

Tədbirdə çıxış edən YAP Sədrinin müavini, AMEA-nın prezidenti Akif Əlizadə qələbə münasibətilə bütün vətəndaşları təbrik edib və bu qələbəni tarixi gün adlandırıb. Bütün xalqımızın bayram əhval-ruhiyyəsində olduğunu deyən A.Əlizadə qeyd edib ki, müdrik və qədirbilən Azərbaycan xalqı növbəti dəfə tarixi bir seçim etdi: "Mürəkkəb siyasi-iqtisadi reallıqlarla müşahidə olunan müasir şəraitdə xalqımız sabitliyə, inkişafa, sosial-iqtisadi və mədəni-mənəvi tərəqqiyə, demokratik dəyərlərə - İlham Heydər oğlu Əliyevə səs verdi. Xalqımız bir daha sübut edir ki, Azərbaycan dövlətini və cəmiyyətini intellektin və mənəvi dəyərlə-

# Xalq İlham Əliyevə "HƏ" dedi!

## YAP-ın təşkilatçılığı ilə "İlhamla irəli" konsert proqramı keçirilib













rin işığında gələcəyə apara biləcək insan cənab İlham Əliyevdir".

A.Əlizadə qeyd edib ki, Azərbaycan ziyalıları, respublikamızın intellektual elitası xüsusilə qürur və sevinc hissləri yaşamaqdadır. Çünki bu qələbə siyasi liderin fərdi uğuru, şəxsi nailiyyəti olmaqdan daha çox xalqın öz tarixi taleyi qarşısında milli məsuliyyətin və vətəndaş cavabdehliyinin göstəricisidir. "Bu qələbə, həm də YAP-ın qələbəsidir. Partiyamız xalqımızın bütün təbəqələrini, xüsusən çoxsaylı ziyalıları öz ətrafında birləşdirən ümummilli hərəkat olaraq meydana gəlib. Bu partiya 30 ilə yaxın bir müddətdə müstəqil Azərbaycanla birgə addımlayıb, onunla eyni uğur, tərəqqi və inkişaf taleyi yaşayıb. YAP-ın liderinin yenidən Prezident seçilməsi onu sübut edir ki, partiyamız bu gün də Azərbaycanın sabaha gedən yollarına işıq salmaqdadır", - deyən, natiq əlavə edib ki, vətəndaşlarımz cənab İlham Əliyevə səs verməklə Azərbaycanın inkişafına, işıqlı gələcəyinə, demokratik inkişaf yoluna, ölkəmizin sosial-iqtisadi tərəqqisinə səs verdi. O, əmin olduğunu bildirib ki, qarşıdakı 7 il ərzində ölkəmiz cənab İlham Əliyevin rəhbərliyi ilə daha böyük nailiyyətlərə imza atacaq.

Daha sonra çıxış edən Baş nazirin müavini, YAP Sədrinin müavini-İcra katibi Əli Əhmədov xoş xəbəri tədbir iştirakçılarına çatdırıb və bu möhtəşəm qələbə münasibəti ilə təbrik edib: "İndilərdə MSK rəsmi şəkildə cənab İlham Əliyevin qələbəsini elan etdi. Bu münasibətlə partiyamızın Sədri, Prezident İlham Əliyevi təbrik edirəm. Qələbən mübarək, hörmətli Prezidentim, qələbən mübarək, Yeni Azərbaycan Partiyası, qələbən mübarək, Azərbaycan xalqı. Bu qələbə cənab İlham Əliyevin möhtəşəm qələbəsidir. Bu qələbə eyni zamanda Azərbycan xalqının qələbəsidir. Çünki İlham Əliyevin yenidən Prezident seçilməsi, yenidən Azərbaycanın inkişafı, tərəqqisi, yüksəlişi, əminamanlığın, sabitliyin qorunması deməkdir. Bu, hər bir vətəndaşın öz gələcəyinə ümidlə baxması deməkdir. Buna görə də bütün xalqımız qələbəni bayram edir. Buradakı şənlik, ölkənin hər bir guşəsindəki şənliklər bu qələbə ilə əlaqədardır. Azərbaycan xalqı bu qələbəni qeyd etməyi özünün əsas vəzifəsi hesab edir. Azərbaycanın Prezidenti olmaq İlham Əliyevin taleyidir, alın yazısıdır. Azərbaycanın bu günü və gələcəyi də İlham Əliyevlə bağlıdır. Bu mənada İlham Əliyev Azərbaycanın şansıdır. Bu, növbəti 7 ildə Azərbaycanın inkişafı, qazanılan nailiyyətlərin daha da artırılması deməkdir".

Əli Əhmədov qeyd edib ki, bu qələbənin əldə olunmasının əsasında Azərbaycan xalqının Prezident İlham Əliyevə olan dərin etimadı və inamı dayanır. Xalq öz rəhbərinə inandı və səs verdi. Onun sözlərinə görə, bu qələbənin əldə olunmasında YAP-ın və onun üzvlərinin böyük əməyi, zəhməti var: "Gənclərimiz, xanımlarımız, ağsaqqallarımız, yəni bütün təbəqələrin nümayəndələri cənab İlham Əliyevin möhtəşəm qələbəsini təmin etmək üçün əlindən gələni etdilər, bu prosesə töhfəsini verdilər, fədakarlıqlar göstərdilər. Biz inamlı, ilhamlı yol ilə daha 7 il irəliləyəcəyik. 7 il Azərbaycana İlham Əliyevin rəhbərliyi altında fədakarcasına xidmət edəcəyik. 7 il bu millətin güzaranını daha da yaxşılaşdırmaq, gücünü, qüdrətini daha da artırmaq üçün hər bir fədakarlığı Prezidentimizin tapşırığı və rəhbərliyi altında yerinə yetirəcəyik. Amma 7 il ilə iş bitməyəcək. 7 ildən sonra Azərbaycan xalqı yenə də düzgün, müdrik seçimini edəcək, Heydər Əliyev siyasətinə səs verəcək. Heydər Əliyev yolu həmişə bizi işıqlı sabahlara aparacaq". Tədbir konsert proqramı ilə davam edib və möhtəşəm atəşfəşanlıqla yekunlaşıb.

# MÖHTƏŞƏM ZƏFƏR!

*Yeni Azərbaycan Partiyası və Azərbaycan Avtomobil Federasiyası avtomobil yürüşü təşkil edib*




Yeni Azərbaycan Partiyası və Azərbaycan Avtomobil Federasiyası aprelin 11-də keçirilən prezident seçkilərində layiqli namizədin qələbəsini qeyd etmək məqsədilə avtomobil yürüşü təşkil edib. AZƏRTAC xəbər verir ki, 100-ə yaxın “offroad” avtomobilinin qatıldığı yürüş Heydər Əliyev Mərkəzinin qarşısından start götürüb. Avtomobillər Heydər Əliyev Mərkəzi - Heydər Əliyev prospekti - Yusif Səfərov küçəsi - 28 May küçəsi - Bülbül prospekti - Xaqani küçəsi - Azadlıq prospekti - Zərifə Əliyeva küçəsi - Neftçilər prospekti - Dövlət Bayrağı Meydanı - Neftçilər prospekti - Yusif Səfərov küçəsi - Heydər Əliyev prospekti - “Koroğlu” metrostansiyası - Heydər Əliyev prospekti - Gülarə Qədirbəyova küçəsi - Heydər Əliyev Mərkəzi marşrutu üzrə hərəkət ediblər.

Yürüşdə Yeni Azərbaycan Partiyasının və Azərbaycan Avtomobil Federasiyasının üzvləri iştirak ediblər.

İştirakçılar aprelin 11-də keçirilən prezident seçkilərinin uğurla başa çatması və Yeni Azərbaycan Partiyasının seçkilərdəki namizədi İlham Əliyevə dəstək ifadə edən şüar və plakatlarla Bakının mərkəzi küçələri ilə yürüş ediblər.














# AVCİYA: “Prezident seçkiləri demokratik, şəffaf və ədalətli keçib”




Azərbaycanda Vətəndaş Cəmiyyətinin İnkişafına Yardım Assosiasiyası (AVCİYA) dörd min müşahidəçi ilə ölkəmizdə prezident seçkilərinin monitorinqini təşkil edib. Monitorinqin nəticələrinə əsasən, səsvermə prosesində hər hansı ciddi qanun pozuntusu qeydə alınmayıb. Səsvermə prosesi vaxtında, saat 19:00-da qanuna uyğun olaraq başa çatıb. Səslərin sayılması prosesi Seçki Məcəlləsinin tələblərinə uyğun olaraq həyata keçirilib, müşahidəçilərin bu prosesi izləməsinə tam şərait yaradılıb.

AZƏRTAC xəbər verir ki, AVCİYA-nın seçki qərargahının rəhbəri Məhərrəm Zülfüqarlı səsvermə günü ölkə üzrə seçici fəallığının yüksək olduğunu qeyd edib. Prezident seçkiləri Azərbaycanın seçki qanunvericiliyinə uyğun olaraq demokratik, şəffaf və ədalətli keçirilib. AVCİYA prezident seçkilərinin Azərbaycan Respublikasının dövlət müstəqilliyinin, təhlükəsizliyinin daha da gücləndirilməsi, insan haqlarının müdafiəsi, vətəndaşların rifahının daha da yüksəlməsi, vətəndaş cəmiyyətinin daha da inkişafında mühüm olduğunu bəyan edir.

# ABŞ-ın “Artur Filkenşteyn və Assosiasiya” şirkətinin keçirdiyi “exit-poll”un nəticələrinə görə İlham Əliyev 85,57 faiz səs toplayıb




ABŞ-ın “Artur Filkenşteyn və Assosiasiya” şirkətinin Vətəndaşların Əmək Hüquqlarını Müdafiə Liqası ilə birgə prezident seçkiləri üzrə səsvermə zamanı keçirdiyi sorğunun (“exit-poll”) nəticələri açıqlanıb.

AZƏRTAC xəbər verir ki, sorğuda 14 min seçici iştirak edib. “Exit-poll”da iştirak edən seçicilərdən 85,57 faizə qədəri Prezident İlham Əliyevə səs verdiklərini bildiriblər.

Sonrakı yerlərdə namizədlərin yığdıqları səs üzrə sıralanması belədir:
Qüdrət Həsənquliyev 2,96 faiz
Zahid Oruc 2,92 faiz
Sərdar Cəlaloğlu 2,48 faiz
Hafiz Hacıyev 1,76 faiz
Araz Əlizadə 1,42 faiz
Fərəc Quliyev 1,52 faiz
Razi Nurullayev 1,37 faiz.

Qeyd edək ki, “Exit-poll” 40 seçki dairəsində keçirilib.

# Mətbuat Şurası: “Seçkilərdə jurnalistlərlə bağlı hər hansı insident qeydə alınmayıb




Saat 08.00-dan 19.00-dək olan müddətdə Prezident seçkilərində peşə fəaliyyətini yerinə yetirən jurnalistlərlə bağlı hər hansı insident qeydə alınmayıb. Sechki-2018.az saytının xəbərinə görə, bu barədə Mətbuat Şurasının məlumatında deyilir. Məlumatda bildirilir ki, ötən zaman kəsiyində Mətbuat Şurasının “qaynar xətt”inə cəmi 1 müraciət daxil olub. “İnter.az” telekanalının müxbiri Səbuhi Vaqifoğlunun Sumqayıtda seçki prosesini işıqlandırarkən üzləşdiyi anlaşılmazlıq aradan qaldırılıb.

Səsvermə müddətində seçki məntəqələrində monitorinq aparan Azərbaycan Mətbuat Şurasının İdarə Heyətinin üzvləri də jurnalistlərin prosesi işıqlandırmalarında hər hansı maneə qeydə almayıblar. Mətbuat Şurasının sədri, Milli Məclisin deputatı Əflatun Amaşov 19 saylı Nərimanov birinci, 20 saylı Nərimanov ikinci, 21 saylı Nəsimi birinci, 41 saylı Sumqayıt birinci və 42 saylı Sumqayıt ikinci, Şuranın İdarə Heyətinin üzvləri - “İki sahil” qəzetinin baş redaktoru Vüqar Rəhimzadə 15 saylı Yasamal birinci və 14 saylı Xəzər, “Azərbaycan” qəzetinin baş redaktoru Bəxtiyar Sadıqov 33 saylı Xətai, Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun icraçı direktoru Vüqar Səfərli, “Yeni Azərbaycan” qəzetinin baş redaktoru, Milli Məclisin deputatı Hikmət Babaoğlu və “Teleqraf holdinq”in rəhbəri Aynur Camalqızı 20 saylı Nərimanov ikinci, “APA holdinq”in rəhbəri Vüsalə Mahirqızı və “Bakı xəbər” qəzetinin baş redaktoru Aydın Quliyev 26 saylı Sabunçu birinci, Milli Məclisin deputatı Aqil Abbas 29 saylı Səbail, “525-ci qəzet”in baş redaktoru Rəşad Məcid 45 saylı Abşeron, Beynəlxalq Avrasiya Mətbuat Fondunun rəhbəri Umud Rəhimoğlu 9 saylı Binəqədi birinci, Azərbaycanlıların və Digər Türkdilli Xalqların Əməkdaşlıq Mərkəzinin rəhbəri İlham İsmayılov 45 saylı Abşeron, Milli Məclisin deputatı Cavanşir Feyziyev 22 saylı Nəsimi ikinci, “Yeni Müsavat” qəzetinin baş redaktoru Rauf Arifoğlu və Orta Asiya və Güney Qafqaz Söz Azadlığı Şəbəkəsinin sədri Azər Həsrət 33 saylı Xətai birinci və 34 saylı Xətai ikinci, “Xalq cəbhəsi” qəzetinin baş redaktoru Elçin Mirzəbəyli 16 saylı Yasamal ikinci, “Şərq” qəzetinin baş redaktoru Akif Aşırlı 15 saylı Yasamal birinci və 16 saylı Yasamal ikinci, “Bizim yol” qəzetinin baş redaktoru Bahəddin Həziyev 34 saylı Xətai ikinci, Jurnalistlərin Həmkarlar İttifaqının sədri Müşfiq Ələsgərli 30 saylı Suraxanı birinci, Demokratik Jurnalistlər Liqasının sədri Yadigar Məmmədli 29 saylı Səbail, “Azadinform” İnformasiya Agentliyinin direktoru Niyaz Niftiyev 10 saylı Binəqədi üçüncü, “Bakinski raboçi” qəzetinin baş redaktoru Rəhman Hacıyev 23 saylı Nəsimi-Səbail, “Milli.az” xəbər portalının baş redaktoru Anar İmanov 29 saylı Səbail, “Cümhuriyyət” qəzetinin baş redaktoru Rafail Becanov 41 saylı Sumqayıt birinci seçki dairələrinə daxil olan məntəqələrdə seçkinin gedişini izləyiblər. Onlar seçki məntəqələrində jurnalistlərə peşə vəzifələrinin icrası üçün hər cür şəraitin yaradıldığını vurğulayıblar.

Qeyd edək ki, Mətbuat Şurasının İdarə Heyətinin üzvləri həmçinin olduqları məntəqələrdə yüksək seçici fəallığını, beynəlxalq və yerli müşahidəçilərə də hər cür şəraitin yaradıldığını qeydə alıblar.

# “Rəy” Monitorinq Mərkəzi: “İlham Əliyev 84,49 faiz səslə irəlidədir”




“Rəy” Monitorinq Mərkəzinin keçirdiyi “exit-poll”un nəticəsinə əsasən, seçkilərdə hazırkı dövlət başçısı, Yeni Azərbaycan Partiyasının prezidentliyə namizədi İlham Əliyev 84,49 faiz səslə irəlidədir.

AZƏRTAC “Sechki-2018.az” saytına istinadla xəbər verir ki, Mərkəzin rəhbəri Rizvan Abbasov, “exit-poll”un nəticələrinə görə, səsvermədə seçicilərin 72,3 faizinin iştirak etdiyini bildirib.

Sonrakı yerlərdə namizədlər yığdıqları səs üzrə belə sıralanıb:
Qüdrət Həsənquliyev - 3,72 faiz;
Zahid Oruc - 3,21 faiz;
Sərdar Cəlaloğlu - 3,04 faiz;
Araz Əlizadə - 1,65 faiz;
Hafiz Hacıyev - 1,57 faiz;
Fərəc Quliyev - 1,46 faiz;
Razi Nurullayev - 0,86 faiz.

“Rəy” Monitorinq Mərkəzi “Exit-poll”u 48 seçki dairəsi üzrə 350 məntəqədə 26 min 624 nəfər arasında keçirib.

# Zaqatalanın ən yaşlı sakininin evinə daşınan seçki qutusu aparılıb



Şimal-qərb bölgəsinin ən yaşlı seçicisi, Zaqatala rayonunun Çobankol kəndində yaşayan 118 yaşlı Fadimət Əsgərova prezident seçkisində səs verib.

AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, adı 110 saylı Zaqatala seçki dairəsinin 34 saylı məntəqəsində seçicilər siyahısında olan Fadimət nənə əvvəlki seçkilərdə olduğu kimi, budəfəki prezident seçkisində də iştirak etmək arzusunda olub. Səhhəti ilə əlaqədar seçki məntəqəsinə gedə bilmədiyi üçün ailəsi tərəfindən məntəqə seçki komissiyasına ərizə ilə müraciət edilib. Fadimət nənənin müraciətini nəzərə alaraq, səsvermə günü onun yaşadığı evə daşınan seçki qutusu göndərilib. Fadimət nənə oğlunun köməyi ilə bülleteni dolduraraq, istədiyi namizədə səs verib.

1900-cü il təvəllüdlü Fadimət nənənin 2 övladı, 15 nəvəsi, 41 nəticəsi və 20 kötücəsi var. O, bütün seçkilərdə səsvermə prosesində şəxsən iştirak edib. Lakin son illər səhhətində yaranan problemlər səbəbindən seçki məntəqəsinə gedə bilmir.





# Növbəti zəfər tarixi yazıldı

## *Qaradağ rayonunda prezident seçkiləri Azərbaycanda mövcud olan demokratik ənənələrə uyğun keçirildi*

Ölkəmizdə demokratik prinsiplərin tam təzahür tapması seçki prosesində də açıq şəkildə müşahidə olunmaqdadır. Bu baxımdan da, bu günə qədər cəmiyyət həyatında və ölkəmizin demokratik imicinin formalaşmasında əsas amil olan seçki prosesi vətəndaş mövqeyinə və iradəsinə əsasən keçirilib. Dövlətimizin günü-gündən artan qüdrəti iqtisadi-siyasi sahədə əldə olunan uğurlar seçki prosesində də mütərəqqi ideyaların və bəşəri dəyərlərin təminatını mümkün etmişdir. Aprelin 11-də keçirilən və ölkə tarixində demokratik və azad seçki prinsipi kimi yadda qalan prezident seçkiləri də xüsusi əhəmiyyətə malikdir. Çünki bu seçkilərin də azad və ədalətli beynəlxalq sivil dəyərlərə uyğun keçirilməsi üçün dövlətimiz tərəfindən ən zəruri addımlar atılmışdır. Prezident seçkilərinin Azərbaycanda mövcud olan demokratik ənənələrə - konstitusiyaya, Seçki Məcəlləsinə uyğun baş tutması bu günə qədər respublika ərazisində əhalinin maarifləndirilməsi, düzgün istiqamətləndirilməsi yönümündə aparılan təbliğat-təşviqat işlərinin nəticəsidir. Qaradağ rayon ərazisində mövcud olan dairələrdə hər bir seçici ona təqdim olunan bülletini alaraq, öz seçdiyi namizədə səs verməklə seçkilərin şəffaf və ədalət prinsipinə uyğun olaraq həyata keçirildiyini təsdiqlədi. Yerli və xarici müşahidəçilərin müşayiəti altında baş tutan prezident seçkiləri, hər zaman olduğu kimi, bu gün də sakit, əmin-amanlıq, seçki normalarına əməl olunmaqla baş tutdu. Hər məntəqənin təyin olunmuş seçiciləri bayram əhval-ruhiyyəsi ilə öz namizədlərini gizli yolla, kimsənin müdaxiləsi olmadan pərdə arxasında dəstəkləyirdi. Qaradağ rayonunda seçki məntəqələrinin əksəriyyətində veb-kameralar quraşdırılmışdır ki, bu da seçkilərin şəffaflığına yaradılan təminatdır. Hər bir seçicinin barmağı xüsusi cihaz vasitəsilə yoxlandıqdan sonra səsvermə hüququ reallaşdırılırdı.

12 saylı Qaradağ-Binəqədi-Yasamal seçki dairəsinin əhatə etdiyi məntəqələrdə fəallıq daha yüksək oldu. Dairə Seçki Komissiyasının sədri Qəşəm Əhmədzadə bizimlə söhbətində bildirdi ki, 32 seçki məntəqəsində 42 min 300 seçici qeydiyyata alınıb. Məntəqələrin 12-də veb-kameralar quraşdırılıb. Prezident seçkilərində 343 nəfər ilk dəfə səs verəcək. Məntəqələrdə heç bir qanun pozuntusu müşahidə olunmayıb. Sakinlər mütəşəkkil qaydada səsvermədə iştirak edirlər.

11 saylı Qaradağ Dairə Seçki Komissiyasının sədri Azər Ələsgərov isə bildirib ki, qeydə alınan 49 min 956 nəfər 37 daimi və 6 müvəqqəti məntəqədə səs vermək hüququna malikdir. Onların 571 nəfəri ilk dəfə səs verən gənclərdir. Səsvermədə iştirak edənlərin arasında yaşı 100-dən yuxarı olan da var. Müşahidəçilərə səsvermə prosesini izləmək üçün hər cür şərait yaradılıb. Məntəqələrdə 200 müşahidəçi səsvermə prosesini izləyir. Eyni zamanda, dairə üzrə 10 məntəqədə veb-kameralar quraşdırılıb ki, bu da səsvermənin şəffaflığını təmin edəcək.

Demokratik seçki mühitinin mövcudluğu Azərbaycanın demokratik prinsiplərə sədaqətli olduğunu nümayiş etdirdi. Bunu seçkiləri yaxından müşahidə edən şəxslər də təsdiqləyirlər. Bizimlə söhbətində 12 saylı Qaradağ seçki dairəsinin 16 saylı məntəqəsində seçki prosesini müşahidə edən MDHP-dən olan müşahidəçi Təranə Camalova bildirdi ki, seçkilər azad və ədalətli şəkildə keçirildi: "Məntəqədə seçki prosesini yaxından izləyirəm. Hər şey qanunvericiliyin tələblərinə uyğun gedir. İnsanlar sərbəst şəkildə məntəqələrə gələrək, səs verirlər". Onun sözlərinə görə, "seçkilər yaxşı keçmir" demək haqsızlıq olar: "İnsanlar kütləvi şəkildə məntəqələrə gəlib səs verirlər. Bu, çox yaxşı haldır. Aparılan seçki təbliğatı öz müsbət nəticəsini verir. Prezident seçilən şəxsi təbrik edəcəyik. Ona vətənimizin inkişafı və xalqımızın sosial rifah halının daha da yaxşılaşdırılması istiqamətində uğurlar arzalayacam".



### Marrendi Jaanus: "Yüksək seçici əhval-ruhiyəsi diqqəti cəlb edir"

Seçki prosesini yaxından izləyən xarici müşahidəçilər yüksək seçici fəallığından və səsvermədən razı qaldıqlarını bildiriblər. "Seçki prosesi çox yaxşı təşkil olunub". Bunu 12 saylı Qaradağ seçki dairəsinin 2 saylı seçki məntəqəsində seçki prosesini müşahidə edən ATƏT müşahidəçisi Marrendi Jannus bildirib. ATƏT müşahidəçisi qeyd edib ki, məntəqələrdə müşahidəçilərin seçki prosesini izləmələri və seçicilərin normal şəkildə səsvermədə iştirak etmələri, eləcə də, veb-kameraların quraşdırılması müsbət haldır. Seçkilərin Azərbaycan xalqının iradəsi əsasında keçdiyini müşahidə edirəm. Yüksək seçici əhval-ruhiyəsi diqqəti cəlb edir.

12 saylı Qaradağ seçki dairəsinin 11 saylı məntəqəsinin sədri Xanımgül Hüseynova bildirdi ki, məntəqədə 1237 nəfər seçici qeydiyyata alınıb: "Seçki olduqca demokratik prinsiplərə əsaslanmaqla keçirilir. Artıq saat 18-ə qədər seçici hüququ olan insanların 67 faizi səsvermə hüququndan istifadə edib. Seçicilərin vətəndaş olaraq seçimində yüksək fəallıq göstərməsi müstəqil Azərbaycanın seçicilərini azad seçim hüququnu təsdiqləyən bir faktordur. Seçki prosesini YAP, Müasir Müsavat, ADP, AMHP və müstəqil müşahidəçilər yaxından izlədilər. Səsvermə prosesi normal və qanunamüvafiq şəkildə keçirildi".

11 saylı Qaradağ seçki dairəsinin 14 saylı məntəqəsində ASDP-dən olan müşahidəçi Bəsti Sadıqova bildirdi ki, heç bir qanun pozuntu ilə rastlaşmadıq. Seçicilər bu günə qədər seçkilərdəki təcrübələrindən yararlanaraq, öz rəylərini müstəqil tərzdə etməkdən çəkinmədilər. Seçkilər azad və demokratik şəkildə keçirildi.

ATƏT-dən olan müşahidəçi Otar Micel bizmlə söhbətində bildirdi ki, seçkilərdə qanun pozuntusuna rast gəlməyib: "Biz məntəqələrin açılış prosesində iştirak etdik. Heç bir qanun pozuntusu və bu kimi meyillər müşahidə etməmişik. İnsanlar sərbəst şəkildə məntəqələrə gələrək, səsvermədə iştirak etdilər".

11 sayı Qaradağ seçki dairəsinin 6 saylı məntəqəsinində ADP-dən olan müşahidəçi Lamiyə Mehraliyeva bildirdi ki, vətəndaşların axın-axın seçki məntəqəsinə gələrək, öz mövqelərini ifadə etmələrində heç bir problemn olmadı. O, seçicinin səs verməsi üçün münbit şəraitin olduğunu və səsvermə prosesinin heç bir qanun pozuntusu ilə müşayiət olmadığını qeyd etdi.

Millət vəkili Aydın Hüseynov bizimlə söhbətində bildirdi ki, müstəqil dövlətimizdə seçkilərin şəffaf və demokratik normalar əsasında keçirilməsi demokratiyanın təntənəsidir: "Bütün seçicilər, demək olar ki, bütövlükdə, ailə üzvləri ilə seçki məntəqələrinə gəlib, fərdi olaraq səs verib. Birmənalı şəkildə, demək olar ki, artıq Azərbaycanda yüksək səviyyədə seçki mədəniyyəti formalaşıb. Hər kəs dərk edir ki, Azərbaycanın taleyüklü məsələsinin həllində köməklik göstərə bilər. Bu əhali arasında aparılan maarifləndirmə işinin məntiqi nəticəsidir".

Qaradağ seçki məntəqələrində seçkiləri müşahidə edən millət vəkilləri Xanhüseyn Kazımlı, Fəzail Ağamalı, Mirkazım Kazımov, Elmira Axundova, Rəşad Mahmudov, Mixail Zabelin təşkilatçılığın yüksək səviyyədə olmasına görə, Azərbaycanda keçirilən prezident seçkilərinin bir çox Avropa ölkəsi üçün nümunə olduğunu bildirdilər. Xanhüsen Kazımlı qeyd etdi ki, seçki məntəqələrinin hamısında müşahidəçilər səsvermənin gedişini sərbəst şəkildə izləyirlər: "Azad və demokratik şəkildə keçirilən seçkilər Azərbaycanın demokratik seçki ənənəsinə sədaqətli olduğunu nümayiş etdirdi. Hər kəs sərbəst şəkildə məntəqələrə gələrək, səsvermədə iştirak edib ".

***Qismət İsmayılov***

# Beynəlxalq müşahidəçilər: Azərbaycanda səsvermə prosesi mükəmməl təşkil edilib

## İlyas Umaxanov: "Seçki komissiyalarının əməkdaşları onlara həvalə edilmiş vəzifələrin öhdəsindən böyük peşəkarlıqla gəlirlər"



Milli Məclisin dəvətinə müvafiq olaraq, MDB Parlamentlərarası Assambleyasının beynəlxalq müşahidəçilər qrupu aprelin 11-də Azərbaycan Respublikası prezidenti seçkilərinin monitorinqini həyata keçirir. Qrupun əlaqələndiricisi Rusiya Federasiyası Federal Məclisinin Federasiya Şurasının sədr müavini İlyas Umaxanovdur. 17 müşahidəçidən ibarət olan qrupa MDB PA-nın iştirakçısı olan 6 dövlətin (Rusiya, Belarus, Qazaxıstan, Qırğızıstan, Moldova, Tacikistan) ali qanunvericilik orqanlarından olan nümayəndələr və deputatlar, həmçinin MDB PA-nın Şurası Katibliyinin əməkdaşları və MDB PA-nın demokratiyanın inkişafı üzrə Beynəlxalq Monitorinq İnstitutunun ekspertləri daxildir.

Jurnalistlərə müsahibəsində seçkilərin yüksək səviyyədə təşkilini və seçicilərin fəallığını qeyd edən İlyas Umaxanov vətəndaşların təkcə Bakıda deyil, ölkənin regionlarında da səsvermədə fəal olduqlarına əminliyini bildirib. Azərbaycan Respublikası seçki qanunvericiliyinə edilən dəyişiklikləri müsbət dəyərləndirən İ.Umaxanov sonda diqqətə çatdırıb ki, seçki komissiyalarının əməkdaşları onlara həvalə edilmiş vəzifələrin öhdəsindən böyük peşəkarlıqla gəlirlər.

Tacikistan Respublikası Ali Məclisinin nümayəndələr palatasının qanunvericilik və insan haqları komitəsinin üzvü Tolibek Buxoriyev və Qazaxıstan Respublikası Parlamenti Məclisinin sosial-mədəni inkişaf komitəsinin üzvü Cəmilə Nurmanbetova da öz təəssüratlarını bölüşüblər. Onlar bildiriblər ki, Azərbaycanda prezident seçkiləri şəffaf və demokratik formada keçir, məntəqələrdə vətəndaşların öz siyasi iradələrini nümayiş etdirmələri üçün bütün şərait yaradılıb. Seçki məntəqələri ən müasir avadanlıqla təchiz edilib, vebkameralar quraşdırılıb.

## Britaniyalı müşahidəçilər: "Azərbaycanda səsvermə prosesi mükəmməl təşkil edilib"



Apardığımız müşahidələrə əsasən deyə bilərəm ki, Azərbaycanda 11 aprel prezident seçkiləri yüksək səviyyədə təşkil olunub və səsvermə prosesində heç bir qayda pozuntusu aşkarlamamışıq. AZƏRTAC xəbər verir ki, bu sözləri Böyük Britaniya parlamentinin üzvü Lord Devid Çarlz Evans Bakı şəhərinin 29 saylı Səbail seçki dairəsinin 6 nömrəli orta məktəbdə yerləşən 6 saylı seçki məntəqəsində jurnalistlərə bildirib.

D.Evans qeyd edib ki, müşahidəçilərimiz artıq bir sıra məntəqələrdə səsvermə prosesini izləyiblər və bir neçə məntəqəyə də baş çəkəcəklər. Müşahidələrimizə əsasən deyə bilərəm ki, seçki prosesi mükəmməl təşkil olunub.

"The London Post" qəzetinin baş redaktoru Şahid Əhməd Qureşi isə bildirib ki, seçki prosesi çox gözəl təşkil olunub. Seçici fəallığı yüksək idi, məntəqələrdə bütün qaydaqanuna əməl edilirdi. Ümumilikdə, deyə bilərəm ki, səsvermə prosesi çox yaxşı səviyyədə keçdi.

## Əli Əsgər Məhəmmədi: "Seçki məntəqələrində səsvermə üçün çox yaxşı şərait yaradılıb"

Seçki məntəqələrində seçicilərin problemlə qarşılaşması müşahidə olunmayıb, səsvermə üçün çox yaxşı şərait yaradılıb. Məntəqə komissiyalarının üzvləri seçicilərə diqqətlə yanaşırlar.

Bu sözləri AZƏRTAC-a müsahibəsində 20 saylı Nərimanov II seçki dairəsinin 16 saylı seçki məntəqəsində İslam Əməkdaşlıq Təşkilatına üzv dövlətlərin Parlament İttifaqının



baş katibinin köməkçisi Əli Əsgər Məhəmmədi deyib. Həm səsvermə prosesinin, həm də yaradılan şəraitin yüksək səviyyədə olduğunu bildirən beynəlxalq müşahidəçi bütün bunların ölkənin daha yaxşı gələcəyindən xəbər verdiyini vurğulayıb, bu seçkinin Azərbaycan xalqına rifah gətirəcəyinə ümidvar olduğunu deyib.

## Türkiyə MSK sədri: "Seçkilər zamanı bütün demokratik prinsiplərə əməl edilib"



Azərbaycanda seçkilər çox şəffaf keçirilir. Sechki-2018.az saytının xəbərinə görə, bu fikri Türkiyə Mərkəzi Seçki Komissiyasının (MSK) sədri Sədi Güven deyib. "Azərbaycan bizim üçün qardaş ölkədir. Və biz bu seçkilərə Azərbaycan tərəfinin dəvəti ilə gəlmişik. Azərbaycanlı həmkarlarımız seçicilər üçün bütün lazımi şəraiti yaradıb. Seçici fəallığı yüksəkdir", - S.Güvən bildirib.

Türkiyə MSK-nın sədri qeyd edib ki, seçkilər zamanı bütün demokratik prinsiplərə əməl edilib. Onun sözlərinə görə, Türkiyədə Azərbaycan xalqı üçün seçkilərin müsbət nəticələr verəcəyinə inanırlar.

## Şanxay Əməkdaşlıq Təşkilatının müşahidəçisi: "Hazırlıq işləri və seçki prosesi mənə xoş təəssürat bağışladı"



Həmkarlarımla birgə Şanxay Əməkdaşlıq Təşkilatının (ŞƏT) müşahidəçi missiyasının tərkibində prezident seçkilərini izləyirəm. Səhər tezdən 44 saylı Sumqayıt-Xızı seçki dairəsinin 1 saylı seçki məntəqəsində səsvermə prosesinə başlanmasını müşahidə etdim. Deyə bilərəm ki, səsvermə çox yüksək səviyyədə təşkil olunub.

Bu sözləri AZƏRTAC-a müsahibəsində ŞƏT-in təmsilçisi Cui Guojie deyib. O qeyd edib ki, seçki məntəqəsində vətəndaşların konstitusion hüquqlarını sərbəst şəkildə həyata keçirmələri üçün maksimum şərait yaradılıb. "Hazırlıq işləri və seçki prosesi mənə xoş təəssürat bağışladı. Əminəm ki, səsvermə uğurlu keçəcək", - deyə Cui Guojie bildirib.

## Beynəlxalq müşahidəçi: "Seçkilər yüksək səviyyədə təşkil olunub"

Seçkilər yüksək səviyyədə təşkil olunub. Seçici fəallığı müşahidə edilir. AZƏRTAC xəbər verir ki, bu sözləri Bolqarıstanın Azad və Demokratik Seçkilər üçün Vətəndaş Təşəbbüsü (GISDI) qeyri-hökumət təşkilatının xətti ilə Azərbaycanda prezident seçkilərini müşahidə edən serbiyalı Aliqrudic Milos bildirib.

O deyib: "Seçicilərin seçki qanunvericiliyi ilə tanış olduqlarını müşahidə etdim. Çoxlu sayda yerli və beynəlxalq müşahidəçi seçkiləri izləyir. İndiyə kimi müşahidə apardığım 9 seçki məntəqəsində heç bir qayda pozuntusu qeydə alınmayıb və biz müşahidəçilərə heç bir şikayət daxil olmayıb".



## Belçikalı müşahidəçi: "Seçki məntəqələrində uzun növbələr müşahidə olunur"



Şəhərdəki seçki məntəqələrində uzun növbələr müşahidə olunur. Növbədə dayananların çoxu qadınlar idi. Sechki-2018.az saytının xəbərinə görə, bunu prezident seçkiləri ilə bağlı keçirilən səsvermə prosesini izləyən belçikalı müşahidəçi Melo Entoni Con deyib. O qeyd edib ki, beynəlxalq müşahidəçilər seçki məntəqələrində səsvermə prosesini müşahidə edirlər.

## Türkiyəli deputatlar: "Seçkilər yüksək səviyyədə təşkil edilib"



Azərbaycanda prezident seçkiləri yüksək səviyyədə təşkil edilib. Hər şey qaydasında davam edir, indiyədək heç bir problemlə rastlaşmamışıq. AZƏRTAC xəbər verir ki, bu sözləri Türkiyə Böyük Millət Məclisinin Ədalət və İnkişaf Partiyasından olan deputatı Necdet Ünüvar deyib.

Türkiyəli deputat 11 aprel tarixinin Azərbaycan xalqı üçün önəmli bir gün olduğunu qeyd edib. O deyib ki, Azərbaycan strateji əhəmiyyəti olan mühüm bir ölkədir. Bu seçkilərə böyük maraq var. Necdet Ünüvar səsvermə başlayandan müxtəlif seçki məntəqələrində olduqlarını, prosesi yaxından izlədiklərini deyib. Milliyətçi Hərəkat Partiyasından deputat Kamil Aydın da seçkilərə çox yaxşı hazırlıq işlərinin görüldüyünü bildirib: "Bir çox seçki məntəqəsində səsvermənin gedişini müşahidə etmişik və hər şey yüksək səviyyədə təşkil olunub. Seçkilərin bu cür keçirilməsi ölkədə demokratiyanın inkişafından xəbər verir".

## Sarvar Otamuratov: "Azərbaycanda keçirilən prezident seçkiləri beynəlxalq normalara uyğundur"



Azərbaycanda keçirilən prezident seçkiləri beynəlxalq normalara, ölkənin Seçki Məcəlləsinə uyğundur. Bu sözləri AZƏRTAC-a müsahibəsində səsvermənin gedişini izləyən Özbəkistan parlamentinin deputatı Sarvar Otamuratov bildirib.

Sarvar Otamuratov deyib: "Biz ondan çox məntəqədə olduq və seçkilərin demokratik, şəffaf şəkildə keçirilməsinin şahidi olduq. Bütün məntəqələrdə müşahidəçilər var idi. Bizim olduğumuz bir çox məntəqələrdə veb-kameralar quraşdırılıb və səsvermə prosesi onlayn izlənilir. Biz seçicilərlə ünsiyyətdə olduq və onlar hər şeydən razı olduqlarını bildirdilər. Ümid edirəm ki, seçkilər başa çatana qədər də heç bir qanun pozuntusu baş verməyəcək".

# Azərbaycanda demokratiyanın növbəti təntənəsi









Hüquqi dövlət quruculuğunda inamla irəliləyən Azərbaycanda özünəməxsus demokratik seçki mühiti formalaşmaqdadır. Demokratik seçkilərin əsas şərti hesabat vermək məsuliyyətindən əlavə, həm də aşkarlıq, şəffaflıq və obyektivlikdir. Seçkilərin bu meyarlar əsasında keçirilməsi siyasi mədəniyyətin, hüquq düşüncəsi mədəniyyətinin formalaşması, xalqın ümumi iradəsinin milli maraqlar ətrafında birləşdirilməsi kimi çox mühüm amillərə meydan açır. Azərbaycan xalqı da ötən əsrin sonlarına doğru dövlət müstəqilliyinə qovuşduqdan sonra hüquqi-demokratik və dünyəvi inkişaf kursunu seçmiş, dünyanın sivil toplumu olaraq güvəndiyi, öz taleyini etibar etdiyi legitim siyasi hakimiyyəti məhz demokratik, azad, şəffaf seçkilər yolu ilə - müstəqil və azad iradə əsasında seçmək əzmini nümayiş etdirmişdir. 1991-ci ilin 18 oktyabrında qəbul olunmuş “Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında Konstitusiya Aktı”nda xalqın azad, demokratik seçki yolu ilə hakimiyyəti formalaşdırmaq hüququ bütün dünyaya bəyan olunmuşdur.



### Seçkilərin azad və demokratik keçirilməsi üçün siyasi iradə vardı

Söz yox ki, demokratik seçkilərin əsasında ümumilik, bərabərlik, seçki gizliliyi və birbaşa səsvermə kimi prinsiplər dayanır. Hər bir vətəndaş irqindən, dinindən, dilindən, sinfi mənsubiyyətindən və siyasi baxışlarından asılı olmayaraq, seçkilərdə fəal və passiv iştirak etmək hüququna malikdir. Ümumiliyi özündə ehtiva edən bu prinsiplər az sayda senzlə (bir şəxsin bu və ya digər hüquqlarının həyata keçirilməsini məhdudlaşdıran şərt) məhdudlaşır. Bu senzlər yaş, əqli və fiziki, eyni zamanda, hüquqi məqamlarla əlaqədardır. Azərbaycanda seçki qanunvericiliyinin unifikasiyası məqsədilə 2003-cü ilin mayında Azərbaycan Respublikasının Seçki Məcəlləsinin qəbulu əməkdaşlığın uğurlu bəhrəsidir. Sənədin hazırlanması ilə bağlı, ilk növbədə, Avropa Şurasının Venesiya Komissiyası, ATƏT-in Demokratik Təsisatlar və İnsan Hüquqları Bürosu və Beynəlxalq Seçki Sistemləri üzrə Fondla (İFES) sıx əməkdaşlıq münasibətləri qurulmuşdur. 2002-ci ilin ortalarından etibarən bu təşkilatlarla aparılan məsləhətləşmələrdən, alınan müsbət rəylərdən sonra Seçki Məcəlləsi Milli Məclisin müzakirəsinə təqdim edilmişdir.

*Ardı Səh. 15*

# Azərbaycanda demokratiyanın növbəti təntənəsi











Əvvəli-Səh-14

Seçkilərdə vətəndaşların bərabər hüquqlara malik olması səsvermə prosesinin vacib şərtlərindən biridir. Hər bir seçici səsinin, heç nədən asılı olmayaraq, qiymətləndirilməsi ədalətlilik prinsipinin təmin olunmasını şərtləndirir. Seçici statusunun səsvermədə heç bir önəm daşımaması da seçkilərin demokratikliyini gücləndirir. Demokratiyanın güclü olduğu ölkələrdə müşahidə edildiyi kimi, Azərbaycanda da seçicilərin səsvermə zamanı bərabər hüquqlardan yararlanmaları təmin edilmişdir. Vətəndaşın seçim azadlığının olması və səsvermə zamanı gizliliyinin qorunması da seçkilərin şəffaf və ədalətli keçməsinə şərait yaradır. Bu məsələ Azərbaycanda yüksək səviyyədə həllini tapmışdır. Belə ki, səsvermə otağına səsvermə qutuları, kabinəsi, masa, yazı ləvazimatı və gizli səsvermə üçün lazım olan digər zəruri əşyalar qoyulur. Fakt budur ki, seçim azadlığı, ilk növbədə, seçiciyə siyasi, inzibati, sosial-iqtisadi, psixoloji və informasiya təzyiqinin olmamasıdır. Seçicilərin və namizədlərin qanun çərçivəsində azadlıqlara malik olmaları da seçki prosesinin təşkilində müsbət rol oynayır.

### 11 aprel seçkiləri uğurların davamlı olacağından xəbər verir

Azərbaycanda aprelin 11-də keçirilən prezident seçkiləri ilə bağlı, hələ bir qədər öncədən, bir sıra prosedurlar həyata keçirilmişdir. İlkin mərhələdə - prezident seçkilərində seçki dairəsinin ərazisində müşahidə aparılmasına dair ərizələrin müvafiq seçki dairəsinin Dairə Seçki Komissiyasına təqdim edilməsi müddəti proseduru reallaşdırılmışdır. Qanunvericiliyə görə, ərizələr seçkilərin təyin edildiyi gündən başlayaraq, seçkilərin keçirilməsinə 5 gün qalanadək təqdim edilməlidir. Bundan əlavə, yaşayış məntəqələrindən kənarda müstəsna hallarda seçki məntəqələrinin yaradılması da səsvermə gününə azı 5 gün qalanadək başa çatmalıdır. Həmçinin, seçki bülletenlərinin Mərkəzi Seçki Komissiyasından Dairə Seçki Komissiyalarına verilməsi proseduru da həmin müddətdə başa çatmalıdır. Namizədlərin qeydə alınması və onların öz təbliğat və təşviqat kampaniyalarını aparmaları üçün hər cür şəraitin yaradılması demokratik prinsiplər və Seçki Məcəlləsinin tələblərinə riayət olduğunun göstəricisidir. Ümumiyyətlə, beynəlxalq ekspertlərin birmənalı rəyinə əsasən, Azərbaycanda 2003-cü ildə qəbul edilən Seçki Məcəlləsi seçkilər sahəsində bütün qanunvericilik normalarını özündə əks etdirmiş, Avropa standartlarına uyğun tərtib olunmuşdur. Sənəd ölkədə prezident, parlament və bələdiyyə seçkilərinin, həmçinin, referendumun keçirilmə qaydalarını müəyyənləşdirmişdir. Seçki Məcəlləsi, eyni zamanda, Mərkəzi Seçki Komissiyasının, eləcə də, dairə və məntəqə seçki komissiyalarının təsisi və fəaliyyəti prinsiplərini də özündə əks etdirmişdir. Əvvəlki qanunlarla müqayisədə Seçki Məcəlləsi şəffaf və demokratik seçkilərin keçirilməsi üçün daha möhkəm hüquqi bazanın yaradılması, namizədlərin qeydiyyatı, seçkilərə hazırlıq və seçki komissiyalarının formalaşdırılması, fəaliyyətinin təşkili prinsip və mexanizmlərinin təkmilləşdirilməsinə imkan yaratmışdır.

Bir sözlə, 11 aprel prezident seçkilərinin azad və demokratik şəraitdə keçirilməsi üçün hər cür imkanlar yaradılmışdır. İctimai-siyasi sabitliyin hökm sürdüyü Azərbaycanda seçkiləri müşahidə etmək istəyən yerli və beynəlxalq müşahidəçilərə də şərait yaradılmışdır. Bu baxımdan, seçkiləri çoxsaylı yerli və xarici müşahidəçilər izləmişlər. Onların artıq açıqlanan ilkin rəylərinə görə, seçkilər azad və demokratik şəkildə və xalqın iradəsi əsasında keçirilib. 11 aprel seçkilərinin özəlliyi, həm də onunla diqqəti cəlb edirdi ki, seçkilərin şəffaflığı üçün 1000-ə qədər seçki məntəqəsində veb-kameralar quraşdırılmışdır. Bununla da, istər ölkə daxilindən, istərsə də xaricdən internet vasitəsi ilə Azərbaycanda keçirilən seçkiləri izləmək mümkün olub. İnternetin keyfiyyəti və sürəti bu məsələdə önəmli rol oynadığından, demək olar ki, hər kəsin seçki prosesini rahat şəkildə izləməsində problem olmayıb. Bütün bu yeniliklərin tətbiqində əsas məqsəd də odur ki, seçkilər vətəndaşlar tərəfindən müsbət qəbul olunsun və səsvermə prosesi şəffaf və ədalətli şəkildə keçirilsin. Gözlənilənlər özünü doğrultdu. Yaradılan münbit şərait, həyata keçirilən demokratik prinsiplər 11 aprel prezident seçkilərinin azad və ədalətli şəkildə keçməsinə imkan verdi. 11 aprel seçkiləri, həm də xalqın demokratik seçiminin dönməzliyini və ölkədə demokratik islahatların davamlılığına sadiqliyini bir daha sübut etdi. Bu baxımdan, təbriklər Azərbaycan xalqına, təbriklər olsun Azərbaycan seçicisinə, eşq olsun birliyə, həmrəyliyə, hüquqi-demokratik dövlət quruculuğuna sadiq Azərbaycanımıza.

**İ.ƏLİYEV**

səs

Son səhifə 12 aprel

# Böyük qələbə, möhtəşəm ZƏFƏR!





















*Baş redaktor:*

**Bəhruz Quliyev**

*Baş redaktorun müavinləri:*

**Valeh Məhərrəmli**
**Fətulla Həsənov**

Ünvanımız: Bakı şəhəri,
Üzeyir Hacıbəyov
küçəsi, 32.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
Tel:598-33-90 Faks:493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet
bazar və bazar
ertəsindən
başqa hər gün
nəşr olunur

Tiraj: 5500